

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 154 (23.566)

15 sentyabr 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 14-də "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Dövlətimizin başçısı mərkəzdə yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev, ümumiyyətlə, illik ümumi daxili məhsulun hansı həcmdə olmasının hesablanması, Sumqayıt Kimya Sənaye Parkının sahəsinin genişləndirilməsi, gələcək inkişafı ilə bağlı təkliflərin hazırlanması, yerlərin seçilməsi ilə bağlı tapşırıqlar verib.

* * *

Həmin gün Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Murtuza Muxtarov adına park istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parkın açılışında iştirak edib. Dövlətimizin başçısı məşhur neft milyonçusu və görkəmli mesenat Murtuza Muxtarovun parkdakı büstünün önünə gül dəstəsi qoyub.

* * *

Prezident İlham Əliyev sentyabrın 14-də Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirak edib. Dövlətimizin başçısı Milli Qəhrəman, cəsur tankçı Albert Aqarunovun məktəbin həyətindəki büstünün önünə gül dəstəsi qoyub. Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə bu təhsil ocağı haqqında məlumat verilib.

# Naxçıvanda yüksək bal toplamış məzunlarla görüş olub





Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərən, eləcə də tələbə adını qazanan bütün məzunları, onların valideynlərini təbrik etmiş, müəllimlərə təşəkkürünü bildirərək demişdir: Müasir dünyamızda elm və təhsil hər bir ölkənin inkişaf səviyyəsini müəyyən edir. Təhsilin sosial-iqtisadi və mədəni inkişafdakı rolu hər gün daha da artır. Ümummilli liderimiz Heydər Əliyev bu məsələnin vacibliyini önə çəkərək deyirdi ki, ***"İndi dünya intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-texniki tərəqqi səviyyəsində inkişaf etdirmək üçün, şübhəsiz ki, yüksək təhsilə nail olmalıyıq".***

Təhsili gələcəyin, inkişafın yolu kimi müəyyənləşdirən ölkə Prezidenti demişdir: ***"Azərbaycanda təhsil sahəsinə çox böyük diqqət, qayğı göstərilir. Çünki bu, ölkəmizin, millətimizin gələcəyi məsələsidir".*** Naxçıvan Muxtar Respublikasında da bütün təhsil pillələri üzrə müasir infrastruktur yaradılmış, yeni texnologiyaların tədrisdə tətbiqinə başlanmışdır. Son 20 ildə muxtar respublikada 45 min şagird yerlik 148 yeni məktəb binası, həmçinin ali, orta ixtisas və peşə məktəbləri üçün yeni binalar istifadəyə verilmiş, 2 universitet şəhərciyi salınmışdır. Muxtar respublikanın təhsil müəssisələrində yeni texnologiyaların tətbiqinə başlanmış, internetə çıxışı olan 800-dən artıq elektron lövhə, 7200-ə yaxın kompüter quraşdırılmış, distant təhsil tətbiq olunmuş, zəngin fonda malik kitabxanalar, fənn kabinələri və laboratoriyalar istifadəyə verilmişdir. Eyni zamanda təhsil müəssisələrinin bütün fənlər üzrə ixtisaslı müəllimlərlə təmin olunması, məktəb-muzey əlaqələrinin gücləndirilməsi, nümunəvi dərslərin tədrisi gənclərin biliklərə hərtərəfli yiyələnməsinə geniş imkanlar açmışdır.



Ali Məclisin Sədri demişdir: Gənclərin təhsili ilə yanaşı, sosial müdafiəsi və məşğulluqlarının təmin olunması da diqqət mərkəzindədir. Ali və orta ixtisas məktəblərində müvafiq ixtisasların aid təşkilatlara hamiliyə verilməsi, tədrisin təcrübə sahələrinə yaxınlaşdırılması kadr hazırlığında ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri ilə müşahidə olunur. Sevindirici haldır ki, təhsilə göstərilən qayğı, yaradılan şərait öz bəhrəsini verir. Hər il ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr qazanılır. 2019-2020-ci tədris ilində də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunların 275-i imtahanlarda 500-700 arası bal toplamışdır.

Ali Məclisin Sədri demişdir: Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Müdriklər də deyirdi ki, *hər bir ölkənin gələcəyi o ölkə insanlarının alacağı təhsillə bağlıdır.* Bu mənada, hərtərəfli təhsil alan gənclər ölkəmizin gələcək təminatçılarıdır. Tələbəlik illəri insan həyatının ən məsuliyyətli dövrüdür. Ona görə də təhsilinizi uğurla başa vurmaq, seçdiyiniz ixtisası dərindən öyrənmək, kamil mütəxəssis kimi yetişmək sizlərin qarşısında duran əsas vəzifələrdir. Biliklərə əsaslanan iqtisadiyyat, innovasiya yönümlü inkişaf yaşadığımız dövrün reallıqlarıdır. Buna gedən yol isə əldə olunan biliklərin istehsalatda tətbiqindən keçir. Çalışıb nəzəri biliklərinizi təcrübədə doğrultmalısınız.

"Təhsilin məqsədi həm də yüksək mənəviyyatlı və vətənpərvər gənclər yetişdirməkdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, o gənc əsl vətənpərvərdir ki, özünü dövləti və xalqı üçün layiqli vətəndaş kimi hazırlaya bilir. Ona görə də milli dəyərlərimizi, tariximizi dərindən öyrənməli, dövlət müstəqilliyimizin qədrini bilməli, ölkəmiz və xalqımız üçün çalışmalısınız.

Ali Məclisin Sədri tələbə adını qazanmış hər bir gəncə bu yolda uğurlar arzulamış, çıxışını ümummilli lider Heydər Əliyevin "Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə gəncliyə verdiyi tövsiyələrlə tamamlamışdır: ***"Gərək gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin… Bunun üçün isə o, ilk növbədə, yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, Azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Çünki Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir".***

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də diqqət və qayğı ilə əhatə olunmuşdur. Bunun nəticəsidir ki, 2019-2020-ci tədris ilində 10 məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Şərur rayonunda yerləşən məktəbdənkənar müəssisələrdə və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə 30 innovativ dərnək yaradılmışdır. Hazırda 6 məktəb binasının, Culfa rayon məktəbdənkənar tərbiyə müəssisələri və Culfa Rayon Təhsil Şöbəsi üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması muxtar respublikada şagirdlərin daha bilikli formalaşmasına böyük töhfə verəcəkdir.

Qeyd olunmuşdur ki, məktəblərdə tədrisin müasirləşdirilməsi, innovativ tədris metodlarının tətbiqi diqqətdə saxlanılır. Muxtar respublikada müəllim nüfuzunun artırılması,

Ardı 2-ci səhifədə

təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. 2019-2020-ci tədris ilində ümumtəhsil məktəblərində işə qəbulla bağlı keçirilən müsabiqələrdə uğurlu nəticələr qazanan gənc kadrlardan 165-i müəllim, 101-i isə məktəblərdə müxtəlif vəzifələrə təyin olunmuş, 1500-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına, təlimlərə cəlb edilmiş, 84 müəllim diaqnostik qiymətləndirmədən keçmişdir. Ötən tədris ilindən ümumtəhsil məktəblərinin 7-ci siniflərində dərsdənkənar məşğələ hesabına “Naxçıvan tarixi”nin tədrisinə başlanılmışdır. Bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təhsil və idman sahəsində fərqlənən şagirdlərin adı Gənc İstedadların “Qızıl kitabı”na yazılmış, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüş, “İstedadlı şagirdlər” albom-kataloqu nəşr olunmuşdur.

Rəhman Məmmədov demişdir ki, 2019-2020-ci tədris ili üzrə ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla, 2911 məzun bitirmiş, onlardan 2503-ü, yaxud 86 faizi ali məktəblərə, 260-ı, yaxud 9 faizi orta ixtisas təhsili müəssisələrinə sənəd vermişdir. Naxçıvan Qızlar Liseyinə qəbul üçün 230, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə isə 352 şagird sənəd vermiş, imtahanın nəticələrinə əsasən liseylərin hər birinə 60 şagird qəbul olmuşdur. Bununla yanaşı, məzunlardan 61-i xüsusi təyinatlı ali məktəblərə, 98-i isə Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına sənəd vermişdir. Məzunların buraxılış imtahanlarındakı nəticələri ötən illə müqayisədə xeyli artmışdır. Muxtar respublika üzrə 275 abituriyent 500-dən yuxarı bal toplamışdır ki, onların da 165-i, yaxud 60 faizi qızlar, 110-u, yaxud 40 faizi isə oğlanlardır. Yüksək bal toplayan abituriyentlərin 68-i Naxçıvan şəhər, 45-i Şərur, 40-ı Babək, 28-i Ordubad, 22-si Culfa, 5-i Kəngərli, 25-i Şahbuz, 2-si Sədərək rayonunun, 40-ı isə Təhsil Nazirliyinə birbaşa tabe ümumtəhsil məktəblərinin məzunlarıdır. Ali məktəblərə qəbulda muxtar respublikanın 110 məktəbinin məzunları 500-700 arası nəticə göstərmişdir. Təhsilə göstərilən qayğının nəticəsidir ki, 2019-2020-ci tədris ilində məzunlardan 17-si “Qızıl”, 17-si “Gümüş” nişana, 34-ü fərqlənmə attestatına layiq görülmüşdür.

Valideyn Aynur Əliyeva çıxış edərək demişdir: “Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızın bütün şəhər, qəsəbə və kəndlərində kompleks quruculuq işləri aparılır, əhalinin yaşayış səviyyəsi yüksəlir. Həyata keçirilən bu tədbirlər içərisində təhsil sahəsi xüsusi diqqət və qayğı əhatəsindədir. Aparılan təhsil quruculuğu sayəsində məktəblərin infrastrukturu yenilənmiş, tədrisin yüksək səviyyədə təşkili üçün geniş imkanlar yaradılmışdır. Yaradılan şərait övladlarımızın daha yaxşı təhsil almasını, milli dəyərlərə hörmətlə yanaşan, vətənpərvər və sağlam gənclər kimi formalaşmasını təmin edir. Müəllimi olduğum Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb 2006-cı ildə yenidən qurulmuş, kompüter, elektron lövhə, dərslik, bədii ədəbiyyat və tədris vəsaitləri ilə təchiz olunmuş, şagirdlərin dəqiq elmlərə dərindən yiyələnməsi üçün laboratoriya və fənn kabinələri yaradılmış, müasir tədrisin tələblərinə uyğun infrastruktur qurulmuşdur. Bütün bunlar məktəbdə tədrisin keyfiyyətinin yüksəlməsinə geniş imkanlar yaratmışdır. 2019-2020-ci tədris ilində məktəbi bitirən şagirdlərdən 1-i “Qızıl”, 1-i “Gümüş” nişana layiq görülmüş, 1-i fərqlənmə attestatı almışdır. Məzunlardan 26-sı ali təhsil müəssisələrinə qəbul olmuşdur. Onlardan da 4-ü 600-dən yuxarı olmaqla, ümumilikdə, 9-u 500-700 arasında bal toplamış, 2 şagird Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdur. Bu gün mən ikiqat sevinc hissi keçirirəm. Çünki iki övladım muxtar respublikada yaradılan müasir təhsil şəraitindən səmərəli istifadə edərək imtahanlarda 600-dən yuxarı nəticə göstərmişdir. Qızım Laləzər Əliyeva məktəbi “Gümüş” nişanla bitirərək qəbul imtahanlarında 632, oğlum Ruslan Əliyev isə 618 bal toplamışdır. Valideyn üçün bundan böyük xoşbəxtlik, bundan böyük sevinc ola bilməz”. Aynur Əliyeva yaradılan təhsil şəraitinə görə müəllim və valideynlər adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Qəbul imtahanlarında 692 bal toplayan İlham Hüseynquliyev muxtar respublikada təhsilə göstərilən qayğıya görə yüksək nəticə göstərən məzunlar adından minnətdarlıq edərək demişdir: “Vətəninin, xalqının tərəqqisi üçün əzmkarlıqla fəaliyyət göstərən rəhbərlə görüş hər bir gəncin arzusudur. Bu gün biz gənclər sevinirik ki, ən böyük arzumuza çatmışıq və Ali Məclisin Sədri ilə görüşürük. Təhsilimi başa vurduğum Heydər Əliyev adına tam orta məktəb də qayğı ilə əhatə olunmuş, bütün zəruri tədris avadanlıqları, zəngin kitabxana fondu və müasir informasiya texnologiyaları ilə təchiz edilmişdir. Göstərilən qayğının nəticəsidir ki, hər il məktəbimizin məzunları qəbul imtahanlarında uğurlu nəticələr əldə edir. Bu il də tam orta təhsili xüsusi nailiyyətlərlə başa vuran bir qrup məzun “Qızıl” və “Gümüş” nişanlara layiq görülmüşdür. Mən də “Qızıl” nişan alanlar sırasındayam. Digər yoldaşlarım kimi məsuliyyətimi başa düşmüş, buraxılış və qəbul imtahanında, ümumilikdə, 692 bal toplayaraq ali təhsil müəssisəsinə qəbul olmaq hüququ qazanmışam. Bu gün muxtar respublikada təhsil alan hər bir şagird bilikli olmaqla yanaşı, Vətənini sevən, milli dəyərlərə sadiq Azərbaycan vətəndaşı kimi formalaşır. Elə buna görə də harada oxumağımızdan, harada yaşamağımızdan asılı olmayaraq, ümummilli liderimizin irsinin və əməllərinin davamçıları olacağıq”.

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayan məzunlara “Naxçıvan: Şərqin əfsanəsi” kitabı və pul mükafatı təqdim olunmuşdur.

Qəbul imtahanlarında 603 bal toplayan Asiman Musayeva minnətdarlıq edərək demişdir: “Hər il yüksək bal toplayan tələbələrlə Ali Məclis Sədrinin görüşü məni daha da ruhlandırırdı. Qarşıma məqsəd qoymuşdum ki, yüksək bal toplayıb belə görüşdə iştirak edim. Çox xoşbəxtəm ki, buna müvəffəq ola bildim. Çalışacağam ki, ali təhsilimi də uğurla başa vurub muxtar respublikamızın inkişafına öz töhfəmi verim”.

Ali Məclisin Sədri bir daha məzunlara uğurlar arzulamış, xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

***Muxtar respublikamızda yüksək bal toplayan məzunlarla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun görüşü artıq ənənə şəklini alıb. Belə görüşlərin növbətisi sentyabrın 12-də Naxçıvan şəhərində – Heydər Əliyev Sarayında keçirildi. 2019-2020-ci dərs ilində pandemiya ilə əlaqədar olaraq mart ayının 4-dən muxtar respublikada tədrisin dayandırılıb onlayn şəkildə davam etdirildiyini, yüzlərlə məzunun builki qəbul imtahanlarında göstərdikləri nəticələrə çox böyük əziyyətlə nail olduqlarını, hətta 11 illik məktəb həyatının son – məzun günündə doğma təhsil ocaqları ilə vidalaşmağın həm sevincini, həm də özünəməxsus “kədərini” yaşaya bilmədiklərini nəzərə alsaq, bu görüş möhtəşəmliyi ilə həyatın astanasına yenicə qədəmlərini qoyan gənclərin unudulmaz bir gününə çevrildi.***

# İtirilmiş gəncliyin tapıldığı gün

*Naxçıvan: dünən*

Möhtəşəm saray, gur işıqlar, əmin-amanlıq 30 il bundan əvvəl, Naxçıvanın blokadasının ağrılı-acılı illərinin gəncliyinin nümayəndəsi olaraq məni həmin görüşdə biranlıq o illərə qaytardı. Gənclərə göstərilən qayğı ilə onların üzündəki xoşbəxtliyin şəfəqi o qaranlıq günlərə işıq salaraq uçuq-sökük məktəblərimizi, neft, salyarka qoxan sinif otaqlarımızı canlandırdı göz önündə. Paltarlarımıza hopan və yuyulanda da getməyən o qoxuları aldım hardansa bir an. Siniflərdə payızdan yazadək palto ilə otursaq da, qırışığımızın açılmadığı, bu qalın paltarların üstümüzə çökdürdüyü ağırlığı xatırladım. Soyuqlar başlayandan ta istilər düşənədək qapısı açılmayan kitabxanalar, idman zalları, emalatxanalar, laboratoriyalar bir-bir keçdi nəzərimdən. Bu soyuq sinif otaqlarından ümid apardığımız və buradakından da dəhşətli soyuğun lövbər saldığı çöksüsüz evlərimizi demirəm hələ. İqtisadi blokada bir yana, informasiya blokadası insanları məhv edirdi. Nə bir radiodan səs çıxırdı, nə bir mavi ekran işıqlanırdı, informasiya təminatımız tək “Şərq qapısı” qəzeti ilə idi ki, yanacaq qıtlığı üzündən bu qəzeti rayonlara həftədə bir dəfə gətirib çıxara bilirdilər. Həyatı dünyadan, ölkədən xəbərsiz, işıqsız, tabii qazsız, əllərimizi nəfəsimizlə qızdırıb qoynumuza qoyduğumuz günlərlə yaşamaq məcburiyyətində idik. Hər səhər məktəbə getməzdən əvvəl çörək növbələrində – yayda qızmar günəş altında, qışda buzun üstündə ayağımızın birini götürüb o birini qoya-qoya evlərimizi birgünlük çörək möhtaclığından xilas etmək idi gəncliyimizin mənası.

Biz də neft ölkəsinin gəncləri idik. Lakin həm də öz ölkəmizdə nefti talonla alanlar idik. Neft növbələrində – küçələrin ortasındaca düşüncələrimizi qurd kimi gəmirib yeyən əsarət, asılılıq yanğısı hər ailə başına 1-2 litr olan neft, salyarka “payı” nın alovunda hələ evə çatanadək çoxdan göyə sovrulmuş olurdu. Sübhün gözü açılandan qaş qaralanadək məcburən kitab oxuyub, dərs tapşırıqlarını həll etməliydik. Çünki qaş qaralan an hamı bir otağa yığılır, o otağı isə yalnız öz ətrafına işıq salan neft çıraqları işıqlandırırdı...

*Naxçıvan: bu gün*

Sarayın bərq vuran işıqlarında dünən – çıraq işığına möhtac Naxçıvandan bu gün qurulub-yaradılan günəş, su, külək elektrik stansiyaları hesabına elektrik enerjisi ixracatçısına çevrilən Naxçıvana qayıdıram. Bu gur işıqda muxtar respublikamızın abadlaşan bölgələri bərq vurur. Müstəqillik illərində – lakin yenə də blokada şəraitində muxtar respublikamızın bu bölgələrindəki şəhərlərdən ən ucqar kəndlərədək ucaldılan 200-dən artıq maddi-texniki bazası gücləndirilmiş məktəblər sıralanır: ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunmuş, sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılmış, laboratoriya və fənn kabinələri olan, 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunan bədii ədəbiyyatla təmin edilmiş məktəblər. Şagirdinə müəllimi, müəlliminə şagirdi qədər qayğı göstərilən təhsil ocaqlarımız. Budur, bugünkü tədbirdə salondolu yüksək bal toplayan məzunları vətənpərvər, yüksək intellektual səviyyədə tərbiyə edən müəllimlərin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Muxtar respublikamızda 117 müəllim “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 189 müəllim “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adlarına, 108 müəllim “Tərəqqi” medalına layiq görülüb. Ötən illərdə müəllimlərin aylıq vəzifə maaşları dəfələrlə artırılıb. Bu qayğı isə ilbəil müəllimlər tərəfindən sağlam nəslin, savadlı, intellektual gəncliyin yetişdirilməsi ilə cavablandırılır. İstedadlı uşaqların adı Naxçıvan Muxtar Respublikasının “Qızıl kitabı”na yazılır. Onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülürlər. Bu qayğı “İstedadlı şagirdlər” albom-kataloqunun nəşri ilə davam etdirilir. Daha böyük qayğı isə budur, göz önündədir...

*275 məzun ilə şəxsən*

Artıq illərdir ki, yüksək bal toplayan naxçıvanlı gənclər gələcək həyatlarına böyük stimul olan muxtar respublika rəhbəri ilə görüşdən sonra qədəm qoyurlar. Bu görüş həm də birinci deyil ki... Yüksək bal toplayanlar da, digər yeniyetmə, gənclər də, hətta məktəbə yenicə gələn birincilər də rayon, şəhər, kəndlərimizdə ötən illər ardıcıl şəkildə tikilib istifadəyə verilən məktəblərində Ali Məclis Sədri ilə görüşüb, tövsiyələrini dinləyiblər. Elə bu düşüncələrlə də bu möhtəşəm sarayda Ali Məclis Sədrinin ötən tədris ilində yüksək bal toplayıb tələbə adını qazanan 275 məzunun hər biri ilə ayrılıqda görüşüb təbrik etməsi, onlara hədiyyələr verməsi yenə də 30 il əvvəlki gəncliklə bu gəncliyin müqayisəsini gətirdi gözlər önünə.

*İtirilmiş gəncliyin tapıldığı gün*

Ali Məclis Sədrinin ***“Tələbəlik illəri insan həyatının ən məsuliyyətli dövrüdür. Ona görə də təhsilinizi uğurla başa vurmaq, seçdiyiniz ixtisası dərindən öyrənmək, kamil mütəxəssis kimi yetişmək sizlərin qarşısında duran əsas vəzifələrdir. Biliklərə əsaslanan iqtisadiyyat, innovasiya yönümlü inkişaf yaşadığımız dövrün reallıqlarıdır. Buna gedən yol isə əldə olunan biliklərin istehsalatda tətbiqindən keçir. Çalışıb nəzəri biliklərinizi təcrübədə doğrultmalısınız”*** kimi dəyərli fikirləri ilə bir anda tələbəlik illərinə qayıtdım. 275-dən biri də mən oldum. Bu qayğının, doğmalığın istisində, bir də ağ kəpənəklərə bənzər 275 gəncin əhatəsində, onların üzündəki sevincdə, xoşbəxtlikdə gəncləşdim. Yenidən universitet tələbəsi oldum və elə bu qayğı əhatəsindəki gəncliyə arasında 1990-cı illərin itirilmiş gəncliyini tapdım: bir anda bizim də müasir məktəbimiz, işıqlı, isti sinif otaqlarımız, idman zallarımız oldu. Kitabxanaların qapısı üzümüzə açıldı, burada saatlarla oturub istədiyimiz kitabı ana dilimizdə oxuya bildik. Evlərimizin soyuq otaqlarına hərarət gəldi, gur işıqlar ətrafı nura qərq etdi, əynimizdəki nimdaş paltarların sıxıcı təsiri bu gənclərin üzərindəki şıq geyimlə əvəzləşdi... Sanki 90-ın gəncləri yığışıb bu qayğıdan pay almaq üçün möhtəşəm saraya gəldilər. Bəli, gəldilər və gördələr ki, bu gənclər elə 90-ın gənclərinin övladlarıdır, itirilmiş gəncliklərini övladlarının simasında tapdıqları an hər kəs qürur duydu: 30 il əvvəlki Naxçıvanın yerində bugünkü Naxçıvanın, 30 il öncəki qayğısızlığın yerində bugünkü qayğının, 30 il əvvəlki gəncliyin yerində belə bir gəncliyin olması ilə...

**Mətanət MƏMMƏDOVA**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti***

---

## Naxçıvanda xüsusi qayğıya ehtiyacı olanlara sovqatlar təqdim edilib

Muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması istiqamətində zəruri tədbirlər görülür.

Sentyabrın 14-də muxtar respublikanın şəhər və rayonlarında yaşayan və sosial qayğıya ehtiyacı olan 320 ailəyə sovqatlar təqdim edilmişdir.

Sakinlər göstərilən qayğıya görə minnətdarlıqlarını bildirmiş, bu kimi sosial tədbirləri muxtar respublikada insan amilinə verilən dəyərin növbəti təzahürü kimi dəyərləndirmişlər.

**“Şərq qapısı”**

---

## Gənc əsgərlər döyüş təyinatlı birləşmə və hissələrə yola salınıblar



Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kursları başa çatan gənc əsgərlər döyüş təyinatlı birləşmə və hissələrə yola salınıblar. Bu münasibətlə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Çıxış edənlər məşğələlərdə yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnən gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-mayor Teymur Eyyubov şəxsi heyəti təbrik edərək bildirib ki, Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin birinci mərhələsində hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi kurslarda qazanılanların nəticəsidir. İnanırıq ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz də hər zaman nümunəvi xidmətləri ilə seçiləcəklər.

Çıxışların ardından əsgərlər müxtəlif ixtisaslar üzrə qazandıqları bilik və bacarıqları nümayiş etdiriblər. Bölmələrin təntənəli keçidi ilə gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

**Nəriman NƏCƏFOV**

Gəncliyimiz, gələcəyimiz

# Dünənin şagirdləri, bu günün tələbələri, sabahın layiqli vətəndaşları

*(Reportaj)*

***Təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticə olaraq bir məqsədi var: sağlam və etibarlı gələcəyimizi təmin etmək. Çünki bu günümüzün gəncləri gələcəyimizi irəli aparan əsas kadr potensialıdır. Gələcəyimiz naminə həyata keçirilən təhsil islahatlarının nəticəsi isə, sözsüz ki, özünü ali təhsil müəssisələrinə qəbul imtahanlarında göstərir. Ümumtəhsil məktəblərinin məzunlarının həm buraxılış imtahanlarında, həm də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr əldə etməsi uğurlu təhsil islahatlarının nəticəsidir. Bunu bu il keçirilən qəbul imtahanlarının göstəriciləri də sübut edir. 2019-2020-ci tədris ilində də ali məktəblərə qəbulda yaxşı nəticələr əldə olunub. Belə ki, bu il muxtar respublika üzrə 275 abituriyent 500-dən yuxarı bal toplayıb. Yüksək bal toplayan abituriyentlərin 68-i Naxçıvan şəhər, 45-i Şərur, 40-ı Babək, 28-i Ordubad, 22-si Culfa, 5-i Kəngərli, 25-i Şahbuz, 2-si Sədərək rayonunun, 40-ı isə Təhsil Nazirliyinə birbaşa tabe ümumtəhsil məktəblərinin məzunlarıdır.***

Artıq muxtar respublikamızda bu da bir ənənə halını alıb ki, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan gənclər Bilik günü ərəfəsində daha həyəcanlı olurlar. Çünki təhsilimizin himayədarı, şagird və tələbələrin qayğıkeşi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun onlarla görüşü gözlənilir. Məhz bu görüş həmin gənclərimizdə gələcək uğurlara daha böyük stimul yaradır. Sentyabrın 12-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında yüksək bal toplayanlarla növbəti görüşdən çıxan gənclərdə də eyni həyəcan və sevinc hisslərinin şahidi olduq. Onlardan ən sevinclisi isə 692 balla muxtar respublikada ən yüksək nəticə göstərən Naxçıvan şəhər sakini ***İlham Hüseynquliyev*** idi. Bu ilin birincisi olduğu üçün çox sevindiyini və bunun üçün valideynlərinə borclu olduğunu bildirən İlham əminliklə yüksək bal toplamağın onun üçün gözlənilməz olmadığını bildirir: "Təbii ki, valideynlərimə bu səvinci yaşatmaq mənim üçün çox gözəl hissdir. Çox xoşbəxtəm. 692 bal toplamağımda oxuduğum məktəbin və eləcə də valideynlərimin rolu böyük olub. Onlar həmişə mənə dəstək veriblər. Valideynlərim hər zaman mənə güvəndiklərini deyirdilər. Bu da məni daha da ruhlandırırdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüş isə hafizəmdə ən qiymətli, əziz xatirə olaraq qalacaq. Bu gün muxtar respublikada təhsil alan hər bir şagird bilikli olmaqla yanaşı, Vətənini sevən, milli dəyərlərə sadiq Azərbaycan vətəndaşı kimi formalaşır. Elə buna görə də harada oxumağımızdan, harada yaşamağımızdan asılı olmayaraq, ümummilli liderimizin irsinin və əməllərinin davamçıları olacağıq".



Ordubad rayon Dırnıs kənd tam orta məktəbinin məzunu ***Günay Nadirova*** isə III qrup üzrə qəbul imtahanında 635 bal toplayıb. Muxtar respublikada təşkil edilən Azərbaycan dili və ədəbiyyatı üzrə fənn olimpiadasında dəfələrlə birinci yerə layiq görülüb. Xarici dil öyrənməyə hədsiz marağı olan Günay Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsində təhsilini davam etdirmək istəyir. Müsahibim imtahanda yüksək bal toplayaraq müəllimlərini sevindirib. O deyir ki, uğur qazanmaq, məqsədə çatmaq üçün çox çalışmaq vacib şərtdir.



Aşağı Əndəmic kəndindən olan ***Aysun Rzazadə*** isə Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbinin yetirməsidir. III qrupa qəbul imtahanlarında 630 bal toplayan Aysun məktəb vaxtlarında qazandığı uğurlardan danışaraq qeyd edir ki, sınaq imtahanlarında həmişə yüksək nəticələr göstərib. Müxtəlif tədbirlərdə, eləcə də inşa yazı müsabiqələrində, fənn olimpiadalarında iştirak edərək bir sıra uğurlar əldə edib. Naxçıvan şəhərində "Muxtariyyət kuboku" uğrunda məktəblilər arasında təşkil edilən intellektual yarışda Ordubad rayonunun təmsilçisi kimi komandaları ilə birgə muxtar respublika üzrə qalib adını qazanıblar. Aysun deyir ki, pandemiya dönəmində onlayn dərslərdə aktiv iştirak edib, öz üzərində çox çalışıb, müəllimləri, ailəsi ona dəstək olublar. Aysun təhsilini Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə davam etdirmək istəyir. O deyir ki, dünya inkişaf etdikcə insan problemləri, insan həyatı daha aktual xarakter alır. Müstəqil dövlət quruculuğunda hüquqları bilmək, onların müdafiəçisinə çevrilmək vacib şərtlərdən biridir. Mən də bir vətəndaş kimi bu vəzifəni layiqincə yerinə yetirəcəyimə inanıram.



Muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğısından, yaradılan müasir şəraitdən Şahbuz rayonunun gəncləri də səmərəli istifadə edir. Mühüm tarixi görüşdən sonra sevinc və həyəcanını paylaşdığımız Sələsüz kənd tam orta məktəbini bitirmiş ***Nərmin Məmmədova*** III ixtisas qrupu üzrə 619 bal toplayaraq bu il Şahbuz rayonu üzrə ən yüksək nəticə göstərib. Nərmin də qazandığı uğurlara görə, hər şeydən öncə, müəllimlərinə çox minnətdardır. O, seçimini Naxçıvan Dövlət Universiteti üçün edəcəyini bildirdi. Nərminin fikrincə, yaxşı hüquqşünas olmaqla, gələcəkdə cəmiyyətə faydalı olacaq. O, mütaliə etməyi və bilik yarışlarını izləməyi çox sevdiyini bildirərək deyir ki, müasir mütəxəssis hər sahədə özünü inkişaf etdirməli, bunun üçün də çox çalışmalıdır.





Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin məzunu ***Məryəm Məmmədova*** da özünü gələcəyin hüquqşünasları arasında görür. O da III ixtisas qrupu üzrə keçirilən imtahanlarda 602 balla yüksək nəticə göstərib. Sənədlərini Naxçıvan Dövlət Universitetinə təqdim edəcəyini bildirən Məryəm tələbəlik illərində də intellektual potensialını artırmaq üçün çox çalışacağını vurğulayır.

Növbəti müsahibimiz Yuxarı Qışlaq kənd tam orta məktəbinin məzunudur. ***Ofeliya Məmmədli*** qeyd edir ki, hələ lap aşağı siniflərdən yaxşı oxumağa çalışırdım. Böyük həvəslə oxudum, öyrəndim və sonda də zəhmətim sayəsində 599 balla tələbə adına layiq görüldüm. Arzum Naxçıvan Dövlət Universitetinin tələbəsi olmaqdır. Uğur qazanmağımla mənə dəstək olan valideynlərimin və müəllimlərimin zəhmətinin hədər getmədiyini düşünürəm. Bundan sonra da təhsil alacağım ixtisasın sirlərinə dərindən yiyələnməklə gələcəyin peşəkar kadrı kimi dövlətimə, Vətənimə layiq olmağa çalışacağam.



Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin məzunu olan ***Aygün Muradlı*** deyir ki, tələbə adını qazanan abituriyentlərə həmişə qibtə ilə baxırdım. Fikirləşirdim ki, gələcək həyatımda yaxşı bir yer tutmaq üçün, ilk növbədə, buna nail olmalıyam. Ətrafımda tələbəlik illərini yaşayan tanışlarım isə bunun üçün ancaq yaxşı oxumağın və əziyyətə qatlaşmağın vacib olduğunu deyirdilər. Nəhayət, mən də böyük həvəslə gözlədiyim tələbə adını bu günlərdə qazandım. Seçdiyim ixtisas qrupu üzrə 592 bal toplamışam. Ali təhsilimi Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində almaq arzusundayam. Gələcəyim üçün atdığım bu addımda özümü xoşbəxt sayıram.



Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki tam orta məktəbin məzunu ***Gülmirə Quliyeva*** qəbul imtahanlarında III ixtisas qrupu üzrə 590 bal toplayaraq tələbə adını qazanıb. Onunla səmimi söhbətimiz zamanı bildirdi ki, qəbul imtahanlarında uğur qazanmağımda başlıca amil məktəbimizdə yaradılmış müasir şərait, zəngin kitabxana, elektron lövhəli siniflər, fənn kabinələri və ən əsası müəllimlərimizin danılmaz zəhmətidir. Təhsil aldığım məktəb hərtərəfli maddi-texniki baza ilə təchiz olunub. Məsələn, informatika dərsləri əvvəllər nəzəri şəkildə tədris edilirdisə, bu gün artıq əyani olaraq kompüterlər vasitəsilə öyrədilir. Həmçinin dərslərin elektron lövhəli siniflərdə keçirilməsi də mövzunun tam şəkildə mənimsənilməsinə şərait yaradır. Təbii ki, bu da biliklərə yiyələnməyimizdə mühüm rol oynayır. Müəllimlərimiz hər bir dərsi dərindən öyrənib qavramağımız üçün səylə çalışır və bilmədiklərimizi bizə ətraflı izah edirlər. Fürsətdən istifadə edərək bizim üçün belə yüksək şərait yaradanlara və əziyyətimizi çəkən müəllimlərimə dərin minnətdarlığımı bildirirəm.



Xatirələrlə dolu olan uşaqlığının ən şirin günlərini 11 illik məktəb həyatı ilə bağlayan ***Elvina Həsənli*** həmişə çox sevdiyi müəllimlərinə oxşamağa çalışıb: "Onlar mənə insanın ən yaxşı yol göstərənin də, yoldaşının da kitablar olduğunu deyirdilər. Ona görə də zəhmətimin bəhrəsi olan bu günlər mənim ən xoşbəxt günlərimdir. Orta təhsil aldığım Şahbuz şəhər 1 nömrəli tam orta məktəbi yaxşı oxumaqla, əla qiymətlər almaqla başa vurdum. Ali məktəbə sənəd qəbulunda iştirak etdim. 589 bal toplayaraq tələbə olmaq arzusuna çatdım. Yaşadığım sevincdən müəllimlərimə, valideynlərimə daha çox pay düşür. Çünki onlar daim yanımda olaraq mənə düzgün yol göstəriblər. Buna görə də mən tələbə adını qazandığım üçün onlara minnətdaram".



Badamlı qəsəbə tam orta məktəbinin məzunu ***Kazım Muradov*** isə 581 balla II ixtisas qrupunda Şahbuz rayonu üzrə ən yaxşı nəticə göstərib. O, uğur qazandığı orta məktəbinə, burada onların təlim-tərbiyəsi ilə məşğul olan müəllim kollektivinə çox minnətdardır. Gömrükçü olmağı arzulayan Kazım özünə layiqli peşə seçməklə gələcəkdə Naxçıvanın inkişafı üçün çalışacağını deyir. Ali məktəblərə qəbul imtahanlarına ciddi hazırlaşaraq, sınaq imtahanlarında və fənn olimpiadalarında fəal iştirak edərək uğur qazandığını deyən Kazım müəllimlərini bundan sonra da sevindirəcəyini bildirir.





Bilik sınağından üzüağ çıxmağın, muxtar respublika rəhbəri ilə tarixi görüşün təəssüratlarını öyrənmək üçün yaxınlaşdığımız Kükü kənd tam orta məktəbinin builki məzunlarından ***Fidan Məmmədli*** III qrup üzrə keçirilən qəbul imtahanlarında uğurlu nəticə göstərib və 565 balla valideynlərini və müəllimlərini sevindirib. Fidan ziyalı ailəsində böyüyüb. Babası və atası coğrafiya müəllimləri olsa da, onun ən böyük arzusu ingilis dili müəllimi kimi doğma kənddə dərs demək olub. Ona görə də Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasını seçəcək. Fidan deyir ki, istənilən xarici dili öyrənmək üçün ana dilimizi yaxşı bilməliyik. O da Azərbaycan dili fənni üzrə keçirilən olimpiadanın qalibi olub, qəbul imtahanında bu fənn üzrə tam nəticə göstərib. Ən böyük arzusu isə ona dərs demiş müəllimlərini bundan sonra da sevindirməkdir.

"Hədəfin yoxdursa, çətin ki, uğura doğru böyük addımlar atıb, müvəffəqiyyətlər qazanasan" – deyən ***Günel Musayeva*** isə Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəbinin fəxrlərindəndir. 565 bal toplayaraq tələbə adını qazanan Günel Musayeva Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində təhsil aldığı illərdə öz biliyi və çalışqanlığı ilə müəllimlərin hörmətini qazanıb, eyni zamanda ictimai işlərdə fəallıq göstərib. Ali məktəblərə qəbul olmaq üçün I ixtisas qrupu üzrə imtahan verən Günelin arzusu isə Riyaziyyat-informatika müəllimliyi ixtisasını seçərək təhsilini davam etdirməkdir. O deyir ki, bugünkü görüşdən sonra qazandığım uğur üçün qürur hissi keçirir və özümü çox xoşbəxt hiss edirəm. Çalışacağam ki, bundan sonra da mənə inananların etimadlarını doğruldum.



Kəngərlinin yüksək nəticə əldə edən digər fəxri isə ***Səriyyə Axundova***dır: "Orta təhsili başa vurduğum Böyükdüz kənd tam orta məktəbində oxuduğum illərdə vətəndaşların hüquqlarını, qanunlarımızın aliliyini qorumaq ən ümdə arzum, istəyim olub. Elə humanitar elmlərə marağım da III ixtisas qrupunu seçməyimi gerçəkləşdirdi. Qəbul imtahanlarında topladığım 564 balla ixtisas seçimi edərək Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi olmaq istəyirəm. Arzuma çatmaqda təhsil aldığım məktəbin pedaqoji kollektivinə borcluyam. Əlbəttə, mənim kimi hər bir gəncin belə uğurlar qazanması dövlətimizin təhsilə olan yüksək diqqət və qayğısı sayəsindədir. Bu gün əldə etdiyim nəticə hələ hər şeyə nail olmaq demək deyil. Mən bir gənc olaraq bundan sonra da daha səylə çalışacağam ki, müəllimlər və valideynlərimin etimadını doğruldum. Çünki məhz onların gərgin zəhmətləri yolumu işıqlandırır".



Qıvraq qəsəbəsində böyüyüb boya-başa çatan və elə həmin qəsəbənin tam orta məktəbini müvəffəqiyyətlə bitirən ***Nərmin Ələkbərova*** IV ixtisas qrupu üzrə qəbul imtahanlarında iştirak edərək yüksək nəticə göstərən abituriyentlərdəndir. 522 bal toplayan Nərminin ən böyük arzusu həkim olmaqdır. Bu arzumu gerçəkləşdirmək üçün isə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini seçərək həmin universitetin tələbəsi olmaq arzusu ilə bizim üçün bugünkü tarixi görüşə gəldim. Bu görüş məni daha çalışqan olmağa və ixtisasıma dərindən yiyələnməyə ruhlandırır. Qəbul imtahanlarında yüksək nəticə göstərdiyim üçün, ilk növbədə, dövlətimizə borcluyam. Yaradılan hərtərəfli şərait qarşılığında isə biz gənclər, sadəcə, yaxşı oxumaqla kifayətlənməməli, həm də gələcəyin peşəkar mütəxəssisi kimi yetişib Vətənə layiqli xidmət etməliyik.



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sözügedən görüşdə deyib: **"Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Müdriklər də deyirdi ki, hər bir ölkənin gələcəyi o ölkə insanlarının alacağı təhsillə bağlıdır. Bu mənada, hərtərəfli təhsil alan gənclər ölkəmizin gələcək təminatçılarıdır. Tələbəlik illəri insan həyatının ən məsuliyyətli dövrüdür".** Tələbə adını qazanan gənclər bu məsuliyyəti dərk edərək ali təhsil ocaqlarında hərtərəfli təhsil alıb, yaxşı bir mütəxəssis kimi Azərbaycanın gələcəyinə xidmət edəcəklər. Orta məktəb həyatı ilə vidalaşıb yeni, müstəqil bir həyata qədəm qoyan, dünənin şagirdləri, bu günün tələbələri, sabahın layiqli vətəndaşları olacaq bu bacarıqlı gənclərin məqsədlərinə çatması üçün bir daha onlara uğurlar arzu edirik.*

**Gülcamal TAHİROVA**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Telli MƏMMƏDOVA**

Yeni nəşrlər

## “Ədəbi-bədii dil və dilçilik araşdırmaları” kitabı haqqında düşüncələr

***Elmi fəaliyyətlərini ümummilli liderimiz, görkəmli dövlət xadimi Heydər Əliyevin elmin, təhsilin inkişafına xidmət edən müdrik ideyaları altında təşkil edən neçə-neçə dilçi alimlərimiz dilimiz, Azərbaycançılığımız uğrunda yorulmaz fəaliyyətlə məşğuldurlar. “Dilimizi sevək, qoruyaq, gələcəyə saf və təmiz şəkildə ötürək”, vəzifəsinə sadiq qalan alimlərimizin bu yolda usanmadan ərsəyə gətirdikləri kitablar, monoqrafiyalar, elmi məqalələr dilimizin saflığının qorunmasının əsas vasitələridir. Onlardan biri də AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, dosent Zülfiyyə İsmayılın Azərbaycan dilçilik elminə bəxş etdiyi növbəti uğurlu kitabı, yenicə çapdan çıxmış “Ədəbi-bədii dil və dilçilik araşdırmaları” adlı elmi nəşrdir.***




Kitab “Ön söz”, 2 fəsil, istifadə edilmiş ədəbiyyat siyahısı və mündəricatdan ibarətdir. I fəsil “Ədəbi dil və bədii düşüncə” adlanır. Bu fəsildə müəllif müxtəlif tarixi dönəmlərdə milli dilimizin qarşılaşdığı təqiblər, ağırlıqlar, bunlardan doğan çətinliklər, eyni zamanda bu problemlərin sürüklədiyi fəlakət – milli dilimizin məhvolma faciəsi ilə üzləşməsi məsələlərindən bəhs edir. Zaman-zaman dilimizin mücahidləri kimi, istər elmi, bədii yaradıcılıqlarında, istərsə də şəxsi fəaliyyətlərində mənəvi kimliyimiz olan dilimizin qorunmasında yorulmaz fəaliyyət göstərən yazıçı, şair və elm fədailərinin yoluna nəzər salınır. Hər fəsildə dil məsələləri ilə bağlı ümumnəzəri məsələlərdən başlamış köklü və konkret problemlərin araşdırılması istiqamətində görkəmli şəxsiyyətlərin dilçilik fəaliyyəti ayrı-ayrı paraqraflarda öz əksini tapır. Müəllif ölməz sənətkarımız Cəlil Məmmədquluzadənin Azərbaycan dilinin qorunmasında misilsiz xidmətlər göstərdiyini bir daha təsdiqləyir. Böyük dramaturq Hüseyn Cavidin əsərlərini təhlil edərək onların bədii dil-üslub xüsusiyyətlərini aşkara çıxarmağa müvəffəq olur.

Zülfiyyə İsmayıl ölməz sənətkarımız Şəhriyarın ana dilimizə verdiyi böyük dəyəri onun əsərlərində Azərbaycan mövzusunu, Azərbaycançılıq ideyalarını önə çəkməsi ilə əlaqələndirir. Kitabda XX əsrin və Yaxın Şərqin böyük simalarından, görkəmli ədib Cəlil Məmmədquluzadə məktəbinin tanınmış nümayəndələrindən, “Molla Nəsrəddin” jurnalında müxtəlif janra aid olan, lakin eyni məqsədə xidmət edən yazıları ilə çıxış etmiş mütərəqqi fikirli şəxsiyyət Əliqulu Qəmküsarın dil məsələləri ilə bağlı görüşləri təhlil edilir. Müəllif Azərbaycan ictimai və ədəbi fikir tarixində şöhrət qazanmış Eynəli bəy Sultanovun əsərlərinin maarifçilik görüşləri ilə zəngin olduğunu aşkarlayır.

Dosent Zülfiyyə İsmayılın təbirincə desək, Araz çayı Məmməd Araz üçün, sadəcə, ilham mənbəyi deyil, həm də qibləgahdır. Müəllif Naxçıvan ədəbi mühitinin layiqli yetirməsi, şeirlərinin musiqisi özüylə doğulan sevimli şairimiz Məmməd Araz yaradıcılığının pərəstişkarı kimi onun əsərlərinin dil-üslub xüsusiyyətlərini ciddi elmi tədqiqata cəlb edir.

Kitabın II fəsli “Dilçilik elmimiz: ustadlar və yeni nəsillər” adlanır. Bu bəhsdə müəllif Azərbaycan dilçilik elminin tanınmış ustad simaları ilə yanaşı, gənc dilçi alimlərin də bu ustadlardan aldıqları mükəmməl dərsin nəticəsi olan yorulmaz fəaliyyətləri işıqlandırılıb.

Zülfiyyə İsmayıl dərin araşdırma apararaq akademik Məmmədağa Şirəliyevin dialektologiya elminə bəxş etdiyi töhfələrdən ürək genişliyi ilə bəhs edir. Müəllif Azərbaycan dilçilik elmində bir çox alimlərin, o cümlədən özünün ustadı dilçi alim, professor Yusif Seyidov yaradıcılığına da müraciət edir. Alimin dilçilik elmimizə bəxş etdiyi tutarlı elmi nəticələr, ümumilikdə, Azərbaycanşünaslıq üçün böyük töhfə kimi öz əksini tapır. Kitabda akademik Kamal Abdullanın Azərbaycan dili sintaksisinin açılmayan sirlərini elmə təqdim etməsi kimi əvəzsiz xidmətlərindən danışılır. Müəllif ustad dilçilərdən olan akademik Möhsün Nağısoylunun da elmi yaradıcılığına səyahət edir.

Kitabın II fəslində müəllifin “ustad dilçi alimlər” mövqeyi ilə yaradıcılığını ən çox tədqiqata cəlb etdiyi dilçi türkoloq alim, pedaqoq, AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikasının Əməkdar müəllimi Əbülfəz Quliyevdir. Yeni nəşrdə bir neçə məqalə vasitəsilə professor Əbülfəz Quliyevin işıqlı ömür və yaradıcılıq yoluna nəzər salınır. Alimin Azərbaycan dilçilik – türkologiya elminə bəxş etdiyi əvəzsiz xidmətlərdən ürəkdolusu söhbət açılır.

Müəllif kitabda Naxçıvanda müxtəlif vaxtlarda və hazırda fəaliyyət göstərən dilçi alimlər haqqında, onların fəaliyyəti ilə bağlı maraqlı məqalələrlə çıxış edir. Dilçi-alim Sevindik Vəliyevin elmi fəaliyyəti, istedadlı dilçi alimlərdən olan Leyla Səfərovanın dilçilik elmi ilə əlaqədar apardığı araşdırmalardan gəlinən elmi qənaətlər kitabda öz əksini tapır. Məhsəti Əsgərovanın “Fransız dilinin Azərbaycanda tədqiqi tarixi” monoqrafiyasına dilçi-alim mövqeyindən yanaşılması, yüksək məziyyətləri haqqında söhbət açılması da maraq doğurur.

*Əminliklə deyə bilərik ki, AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, dosent Zülfiyyə İsmayılın ərsəyə gətirdiyi bu kitab dilçi alimlərimizin Azərbaycan dilçilik elmindəki uğurlu fəaliyyətlərini əks etdirmək baxımından böyük dəyərə malikdir. Bu da müəllifin şəxsən özünün milli-mənəvi sərvətimiz olan dilimizə böyük sevgisini ifadə edən ən yüksək göstəricilərdən biridir.*

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## Milli Musiqi Gününə həsr olunmuş onlayn konfrans keçirilib



*Muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və sənətkarlıq məktəbləri müəllimlərinin iştirakı ilə Milli Musiqi Gününə həsr olunmuş onlayn konfrans keçirilib.*

Tədbiri giriş sözü ilə nazirliyin aparatının İncəsənət və təhsil müəssisələri ilə iş şöbəsinin baş məsləhətçisi Leyla Əlimərdanova açaraq tədbirin mahiyyəti barədə məlumat verib. Qeyd olunub ki, 18 sentyabr musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəylinin doğum günüdür. 1995-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın “Milli Musiqi Günü” kimi qeyd olunması qərara alınıb.

Üzeyir Hacıbəyli 1908-ci il yanvarın 18-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında tamaşaya qoyulan “Leyli və Məcnun” operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoyub. O həm də Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Görkəmli bəstəkarın “Ər və arvad”, “O olmasın, bu olsun”, “Arşın mal alan” musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapıb.

Bəstəkarın fəaliyyəti haqqında geniş məlumat verən Naxçıvan Musiqi Kollecinin müəllimi Ruhiyyə Dünyamalıyeva sonda Azərbaycan bəstəkarlıq məktəbinin inkişaf tarixinə nəzər salıb.

Tədbir diskussiya şəklində davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi

### *2020-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya və elmlər doktoru hazırlığı üzrə dissertantura və doktoranturaya qəbul elan edir*

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | | Elmlər doktoru hazırlığı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| Təbii Ehtiyatlar İnstitutu üzrə | | | | | | | | | | | | | | | | | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2307.01 | Fiziki kimya | | | | | | 1 | | 1 | | | | | | | | |
| 2507.01 | Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | | | | | | | | | | | | | | 1 | 1 | |
| Batabat Astrofizika Rəsədxanası üzrə | | | | | | | | | | | | | | | | | |
| 2108.01 | Astrofizika və ulduz astronomiyası | | | | | | 1 | 1 | | | | | | | | | |
| Bioresurslar İnstitutu üzrə | | | | | | | | | | | | | | | | | |
| 2429.01 | Parazitologiya | | | | | | 1 | | 1 | | | | | | | | |
| 2432.01 | Bioloji ehtiyatlar | | | | | | 1 | 1 | | 1 | | 1 | | | | | |
| 3110.02 | Kənd təsərrüfatı heyvanlarının yemlənməsi və yemlərin texnologiyası | | | | | | | | | | | | | | 1 | 1 | |
| Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə | | | | | | | | | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | | | | | | 1 | | 1 | | | | | | | | |
| 5505.02 | Arxeologiya | | | | | | 3 | 3 | | | | | | | | | |
| İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə | | | | | | | | | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili (5706.01) | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı (5716.01) | | | | | | 2 | 2 | | | | | | | | | |
| 5719.01 | Folklorşünaslıq | | | | | | 1 | 1 | | 1 | | 1 | | | | | |
| 6203.01 | İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | | | | | | 1 | 1 | | | | | | | | | |
| 6218.01 | Dekorativ-tətbiqi sənət | | | | | | 1 | 1 | | | | | | | | | |
| 6401.01 | Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası | | | | | | 1 | 1 | | | | | | | | | |
| Cəmi: | | | | | | | 17 | 14 | 3 | 2 | | 2 | | | 2 | 2 | |

***Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır***
- *müəssisə rəhbərinin adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *iş yerindən xasiyyətnamə;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlər 7 oktyabr 2020-ci il tarixə qədər saat $09^{00}$-dan $17^{00}$-a kimi AMEA Naxçıvan Bölməsinin əsas binasında, Elm və Təhsil Şöbəsində qəbul edilir.

***Ünvan: Heydər Əliyev prospekti 76***
***Əlaqə telefonu: 545-34-96***
***e-mail: doktorant.nb@mail.ru***

***İtmişdir***

Hüseynov Bilal Qafar oğlunun adına olan 002024 nömrəli “Dövlət əmlakının hüquqi və fiziki şəxslərə satılması haqqında şəhadətnamə” itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Gülcamal Tahirova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 692**